BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2015*

## HÜQUQ

**UOT 343.1**

# CİNAYƏT MÜHAKİMƏ İCRAATININ OBYEKTİVLİYİ, QƏRƏZSİZLİYİ VƏ ƏDALƏTLİLİYİ PRİNSİPİ BARƏDƏ BƏZİ MÜLAHİZƏLƏR

**F.M.ABBASOVA, C.H.HƏMİDOV**
***Bakı Dövlət Universiteti***
***firuza.abbasova@gmail.com***

*Prinsiplər sistemi prosessual fəaliyyətin hüquqi əsasının məzmunu kimi çıxış edir. O, prosesin strukturunu, prosessual fəaliyyətin mexanizmini, onun məzmununu, istintaq hərəkətlərinin prosessual formasını, prosessual qərarların qanunçuluq və ədalətlilik təminatını və s. müəyyən edir. Onlar nəinki sistemə daxildir, hətta onu bir tam kimi təşkil edir. Yalnız prinsiplər sistemi cinayət prosesinin məqsədlərinə nail olmağı təmin edə bilər. Bu da onun yeni keyfiyyətidir ki, heç bir prinsip ayrı-ayrılıqda ona malik deyildir. Prinsiplər sistemi özünün dolğunluğu və onu təşkil edən prinsiplərin müxtəlif məzmununun qüvvəsinə görə, öz-özlüyündə bütünlük və özünübərpa qüvvəsinə malikdir. Buna görə də, hər hansı bir prinsipin pozulması, onun sistemini iflic vəziyyətə salmır və prosesin vəzifələrinin həll edilməsi imkanlarını istisna etmir. Bunları nəzərə alaraq, məqalədə cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipi Azərbaycan Respublikası CPM-nin 28-ci maddəsinin doktrinal mülahizəsi əsasında ətraflı təhlil edilmişdir.*

**Açar sözlər:** cinayət prosesi, prinsip, obyektivlik, həqiqət, qərəzsizlik, etirazlar, ədalətlilik, təhlil, təkliflər

Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipi Azərbaycan Respublikasının 01.09.2000-ci il tarixli Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – AR CPM) 28-ci maddəsində təsbit edilmişdir. Cinayət prosesinin prinsipləri hüquq normalarında təsbit olunduqları üçün onlar hüquq normalarına xas olan bütün ümumi əlamətlərə malik olurlar. Bununla belə, prinsiplər bir sıra spesifik əlamətlərə də malikdirlər ki, məhz bu əlamətlər onları digər hüquq normalarından fərqləndirir və onların dövlətin bu və ya digər fəaliyyət sahəsindəki xüsusi yerini müəyyən edir. Cinayət prosesinin prinsiplərinə xas olan aşağıdakı əlamətlər fərqləndirilir:

*Birincisi,* prinsiplər cinayət-prosessual hüququn yaranmasının və fəaliyyət istiqamətlərinin əsaslarını müəyyən edir. Bu müddəanın mənası ondan iba-

rətdir ki, prinsiplərin məzmunu cinayət mühakimə icraatında müvafiq səlahiyyətlərə malik olan hüquq-mühafizə və məhkəmə orqanlarının strukturunu şərtləndirir, eləcə də, bu orqanların və vəzifəli şəxslərin qanunla icazə verilən davranış hüdudlarını müəyyən edir (1, 82). Bu fikri cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinə münasibətdə nəzərdən keçirdikdə, görünür ki, həqiqətən də, bu prinsip həm hüquq-mühafizə və məhkəmə orqanlarının strukturunu şərtləndirmə, həm də bu orqanların və vəzifəli şəxslərin qanunla icazə verilən davranış hüdudlarını müəyyən etmə elementlərinə malikdir. Məsələn, qeyd edilən prinsipin qərəzsizlik tələbinin təminatı ilə əlaqədar cinayət prosesində iştirakına etiraz edilmiş cinayət təqibi orqanının vəzifəli şəxsi və ya hakimin iş üzrə icraatda iştirak edə bilib-bilməyəcəyi məsələsinin səmərəli şəkildə həll edilə bilməsi üçün həm cinayət təqibi orqanı, həm də məhkəmə orqanları elə bir struktura malik olmalıdırlar ki, bu struktur daxilində aşağı vəzifədə olan şəxsin qərəzsizliyi məsələsi ondan asılı olmayan və əksinə, daha yüksək statusa malik olan şəxs tərəfindən həll edilə bilsin. Bu hal cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipini doğurdan da hüquq-mühafizə və məhkəmə orqanlarının müəyyən struktura malik olmasını şərtləndirən amil kimi çıxış edir. Yenə də qərəzsizlik tələbinin səmərəli realizəsi ilə bağlı misal timsalında cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinin cinayət prosesini həyata keçirən vəzifəli şəxslərin qanunla icazə verilən davranış hüdudlarını müəyyən etdiyinin şahidi olmaq mümkündür. Belə ki, məhz nəzərdən keçirilən prinsipin tərkib elementi olan qərəzsizlik tələbinin təsiri ilə milli cinayət mühakimə icraatında birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində, həmçinin hüquq və azadlıqların pozulması ilə bağlı yeni açılmış hallar üzrə həmin cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında əvvəllər hakim qismində iştirak etmiş şəxs işdə yenidən hakim qismində iştirak edə bilməz. Bundan başqa, tədqiq edilən prinsipi təsbit edən AR CPM-in 28-ci maddəsinin özündə də konkret qadağaların nəzərdə tutulması, mahiyyətcə, məhz cinayət prosesini həyata keçirən vəzifəli şəxslərin qanunla icazə verilən davranış hüdudlarının müəyyən edilməsinə yönəlmişdir. Belə ki, AR CPM-in 28.2-ci maddəsi hakimlərə qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə etməyi, 28.3-cü maddəsi hakimlərə şəxsən cinayət prosesinin nəticəsi ilə birbaşa, yaxud dolayı yolla maraqlı olduqları hallarda, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etməyi, eləcə də, 28.6-cı maddəsi ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının ayrı-ayrı işlər və şəxslər üçün, habelə müəyyən şəraitə görə, yaxud hər hansı bir zaman dövründə özbaşınalıqla dəyişdirilməsini qadağan etmişdir.

*İkincisi,* prinsiplər qüvvədə olan cinayət-prosessual qanunvericilikdə hüquqi göstərişlərin sistemi formasında təsbit edilmiş olmalıdır. Bu əlamətə görə, hər hansı hüquqi ideya qanunda təsbit olunmayana qədər onu prinsip qismində qəbul etmək olmaz. Yeni hüquqi ideyaların mövcudluğu, müvafiq

olaraq yeni prinsipin yaranmasına obyektiv zərurətin olmasını əks etdirə bilər, lakin belə ideya qanunvericilikdə öz əksini tapmayana kimi cinayət prosesinin prinsipi kimi dəyərləndirilə bilməz (1, 83).

Bu fikri cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinə münasibətdə nəzərdən keçirdikdə, görünür ki, həqiqətən də, bu prinsip həm beynəlxalq hüquqi aktlarda (məsələn, İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 6-cı maddəsində), həm ölkənin Əsas Qanununda (Konstitusiyanın 125-ci maddəsinin VII və 127-ci maddəsinin II hissələrində), həm də müvaviq sahəvi qanunvericilikdə (AR CPM-in 28-ci maddəsində) təsbit edilmiş və konkret məzmuna malik olan hüquqi ideyadan ibarətdir.

*Üçüncüsü,* prinsiplər cinayət-prosessual hüquq münasibətlərinin məzmununu tam əhatə edir. Bu əlamət onu nəzərdə tutur ki, cinayət prosesinin prinsipləri cinayət-prosessual hüquq münasibətlərinə daxil olan proses iştirakçılarının prosessual statuslarını şərtləndirir. Doğrudur, hər bir prinsipin məzmununa cinayət prosesi iştirakçılarının hüquqları, vəzifələri və məsuliyyətinin xüsusiyyətləri daxil olmasa da, prinsiplər onların digər prosessual normalarda təsbit edilməsi üçün zərurət yaradır (1, 83). Bu fikri cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinə münasibətdə nəzərdən keçirdikdə, görünür ki, həqiqətən də, bu prinsip həm bilavasitə öz məzmununda konkret vəzifələr nəzərdə tutur, həm də digər prosessual normalarda cinayət prosesi iştirakçılarının hüquqları, vəzifələri və məsuliyyətinin xüsusiyyətlərinin təsbit edilməsi üçün zərurət yaradır. Belə ki, nəzərdən keçirilən prinsipi təsbit edən AR CPM-in 28-ci maddəsinin özü bilavasitə öz məzmununda məhkəmələr üçün konkret vəzifələr sistemi müəyyən edir. AR CPM-in 28.4-cü maddəsinə əsasən, cinayət mühakimə icraatını həyata keçirərkən məhkəmələr cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək; şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq; şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud qismən təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxmaq; cinayət prosesi gedişində qanunun pozulması ilə əlaqədar verilən şikayətləri yoxlamaq; cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək kimi vəzifələri yerinə yetirməlidirlər.

Bundan başqa, cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipi digər prosessual normalarda cinayət prosesi iştirakçılarının hüquqları, vəzifələri və məsuliyyətinin xüsusiyyətlərinin təsbit edilməsi üçün də zərurət yaradır. Məsələn, AR CPM-in 87.6.5-ci maddəsi zərər çəkmiş şəxsə, 89.4.4-cü maddəsi mülki iddiaçıya, 90.7.13-cü maddəsi şübhəli şəxsə və s. etirazlar etmək hüququ verir (qərəzsizliyin təminatı ilə bağlı prosessual hüquqların nəzərdə tutulması); 86.2.1-ci maddəsi təhqiqatçı, 85.2.1-ci maddəsi

isə müstəntiq üçün cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək vəzifəsini nəzərdə tutur (obyektivliyin təminatı ilə bağlı prosessual vəzifələrin nəzərdə tutulması), 107.4-cü maddəsinə görə, hakimə (məhkəmə tərkibinə) etiraz məhkəmə baxışını ləngitmək məqsədi ilə edilmişsə, yaxud etirazın dəlilləri uydurma olarsa (həqiqətə uyğun deyildirsə), etiraz etmiş şəxs məhkəmənin qərarına əsasən iki yüz iyirmi manat miqdarında cərimə edilə bilər (qərəzsizliyin təminatı ilə əlaqədar prosessual məsuliyyətin nəzərdə tutulması) və s.

*Dördüncüsü,* prinsiplər cinayət mühakimə icraatı sahəsində dövlətin daxili siyasəti və insan hüquqlarına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları ilə sıx əlaqəlidir. Prinsiplərin dövlət siyasəti ilə əlaqəsi aşağıdakı kimi izah edilə bilər. Əvvəla, prinsiplərdə cinayət mühakimə icraatında yüksək standartlar tələb edən göstərişlər nəzərdə tutulduğundan, onlar dövlət aparatının üzərinə hüquq-mühafizə və məhkəmə orqanlarının fəaliyyətinin təşkil edilməsi sahəsində konkret vəzifələr qoyur. İkincisi, prinsiplər özləri məhz hüquq yaratmaq səlahiyyəti olan dövlət orqanlarının fəaliyyəti nəticəsində yarandığından cinayət-prosesual qanunvericiliyin bir çox müddəaları formulə edilərkən məhz dövlətin «ideal» cinayət mühakimə icraatına dair fikirləri rəhbər tutulur. Dövlətin belə fikirləri isə məhz beynəlxalq müqavilələrdə müəyyən edilmiş müddəalara, standartlara və minimal tələblərə əsaslanmaqla formalaşır ki, bu da cinayət prosesinin prinsipləri ilə beynəlxalq müqavilələrin müddəaları arasındakı əlaqəni əks etdirir (1, 83-84).

Bu fikri də cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinə münasibətdə nəzərdən keçirdikdə, görünür ki, həqiqətən də, bu prinsip dövlət aparatının üzərinə hüquq-mühafizə və məhkəmə orqanlarının fəaliyyətinin təşkil edilməsi sahəsində konkret vəzifələr qoyur. Belə ki, cinayət mühakimə icraatının obyektivliyini təmin etmək üçün dövlət məhkəməyədək hərtərəfli, tam və obyektiv araşdırma arapmalı olan və bu araşdırmanın nəticələrini ümumiləşdirərək müvafiq cinayət işini, yaxud digər materialları məhkəməyə göndərməli olan təhqiqat, ibtidai istintaq və prokurorluq orqanları, eləcə də, cinayət mühakimə icraatının ədalətliliyini təmin etmək üçün vahid məhkəmə sistemi təşkil etməlidir.

*Beşincisi,* prinsiplər digər cinayət-prosessual normalara münasibətdə tənzimedici və mühafizəedici rol oynayır. Prinsiplərin tənzimedici rolu prosessual qərarların qəbul edilməsi zamanı və ya hər hansı bir prosessual hərəkətin icrasına başlandıqda cinayət mühakimə icraatını həyata keçirən orqanın vəzifəli şəxsinin öz hərəkətlərini prinsiplərə uyğunlaşdırmasında ifadə olunur. Prinsiplərə uyğun gəlməyən, onlarla ziddiyyət təşkil edən qərarların qəbul edilməsi, prosessual hərəkətlərin həyata keçirilməsi yolverilməzdir. Prinsiplərin mühafizəedici (hüquqbərpaedici) rolu isə onda ifadə olunur ki, prinsiplərin tələblərinə cavab verməyən, onlara zidd olan qərarların qəbul edilməsi və ya prosessual hərəkətlərin icra edilməsi, bu qərarların və hərəkətlərin nəticələrinin qanunsuz və əsassız hesab edilməsi və ləğv edilməsi ilə

nəticələnir. Prinsiplərin pozulması ilə əldə edilmiş sübutlar isə yolverilməz sübutlar kimi dəyərləndirilir (1, 83-84).

Hesab edirik ki, son fikri də cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipinə tam anlamda şamil etmək mümkündür. Həqiqətən də, istənilən prosessual qərar qəbul edilərkən, istənilən prosessual hərəkət həyata keçirilərkən cinayət prosesesini həyata keçirən orqan cinayət-prosessual hüquq normalarını elə tətbiq etməlidir ki, cinayət mühakimə icraatının nə obyektivliyi, nə qərəzsizliyi, nə də ədalətliliyi tələbi pozulmasın, başqa sözlə, prosessual qərar və ya prosessual hərəkət yalnız həqiqətin müəyyən edilməsinə xidmət etsin, bu qərarın qəbulu və ya hərəkətin edilməsi ön-yarğı və ya şəxsi-qərəz əsasında olmasın, nəhayət, ədalətin bərqərar olmasına zəmin yaratsın.

AR CPM-in 28.1-ci maddəsinə əsasən, məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız CPM-ə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar. Nəzərdən keçirilən maddə bəyanat xarakterli olub, cinayət mühakimə icraatının obyektivlik, qərəzsizlik və ədalətlilik prinsipini elan edir.

AR CPM-in 28.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin (məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir) və 127-ci maddəsinin II hissəsinin (hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar) müddəaları cinayət mühakimə icraatına münasibətdə təkrarlanır və dəqiqləşdirilir.

AR CPM-in 28.2-ci maddəsinə əsasən, hakimlər cinayət mühakimə icraatını həyata keçirərkən qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər. Göründüyü kimi, nəzərdən keçirilən maddədə «qanunun mənafeyi» ifadəsindən istifadə edilməsinə baxmayaraq, nə hüquq nəzəriyyəsində, nə də hüquq fəlsəfəsində bu anlayışdan demək olar ki, istifadə edilmir.

Qanun – hüququn zahiri təzahür forması, normativ-hüquqi aktın bir növü olub, ictimai münasibətlərin tənzim edilməsinə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraq və mənafelərinin mühafizə, müdafiə və təmin edilməsinə yönəlmişdir. Qanun leqal və legitim hesab edilən mənafelərin təsbit edilməsi, onların təminat və realizə mexanizmlərinin tənzim edilməsi vasitəsidir. Qanun özü-özlüyündə mənafeyə malik deyildir, o, başqa şəxslərin, eləcə də, bütöv cəmiyyətin və dövlətin mənafelərini əks etdirir. Qanunda nəzərdə tutulmuş və ya qadağan edilməmiş mənafelər «qanuni mənafelər», qanunla qadağan edilmiş, eləcə də, digərlərinin qanuni mənafelərinə xələl gətirən mənafelər isə «qeyri-qanuni mənafelər» hesab edilir. «Qanun» və «mənafe» anlayışlarının qarşılıqlı əlaqəsində birinci anlayış ikinci anlayışın meyar müəyyən edən kateqoriyası kimi çıxış edir (46, 76; 107, 70).

Maraqlıdır ki, AR CPM-in öz məzmununda da 28.2-ci maddədən başqa, heç bir maddədə «qanunun mənafeyi» kateqoriyasından istifadə edilməmişdir. «Mənafe» kateqoriyası, bir qayda olaraq, AR CPM-də «dövlətin mənafeyi», «cəmiyyətin mənafeyi» (məsələn, AR CPM-in 37.5.1-ci maddəsinə əsasən törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən başlanıla bilər), «qanuni mənafe» (məsələn, AR CPM-in XIII Fəsli «Cinayət prosesində iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi» adlanır), «tərəfin mənafeyi» (məsələn, AR CPM-in 264.5-ci maddəsinə əsasən, cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda, müdafiə tərəfinin mənafeyinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün müdafiəçi öz təşəbbüsü ilə bir və ya bir neçə ekspertə, ekspert idarəsinə ekspert işinin müqavilə əsasında ödənilməsi şərti ilə ekspertizanın aparılması barədə rəsmi müraciət etmək hüququna malikdir) və s. bunun kimi ifadələr daxilində istifadə edilmişdir. Başqa sözlə, nə cinayət-prosessual hüquq nəzəriyyəsində, nə də qanunda «qanunun mənafeyi» kateqoriyasına rast gəlinmir.

AR CPM-in 28.3-cü maddəsinə əsasən, hakim şəxsən cinayət prosesinin nəticəsi ilə birbaşa, yaxud dolayı yolla maraqlıdırsa, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edə bilməz. Bu maddə hakimlərin qərəzsiz olmalarına dair tələbin ifadə forması kimi çıxış edir, konkret iş üzrə və konkret şəxs barəsində ədalət mühakiməsini həyata keçirən hakimin işin nəticələri ilə şəxsi marağının istənilən formasını istisna edir. Hüquq ədəbiyyatında qeyd edilir ki, hakimin cinayət prosesinin nəticəsi ilə birbaşa və ya dolayı yolla maraqlı olması tamah niyyəti, siyasi motivlər və digər motivlərlə bağlı ola bilər. Məhkəmələrin cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara qərəzsiz baxması onda öz ifadəsini tapır ki, hakimin baxdığı iş üzrə ədalət mühakiməsini həyata keçirməkdən başqa heç bir marağı olmur. Hakimin iş üzrə qərəzli olmasının bəzi əsasları CPM-də öz ifadəsini tapmışdır (AR CPM-in 109-cu maddəsi), lakin qanunverici hakimin qərəzliliyinə şübhə yaradan halların dairəsini məhdudlaşdırmamış, hakimin cinayət təqibində maraqlı olmasını təsdiq edən konkret və mötəbər sübutların mövcudluğunu da bu hallara şamil etmişdir (3, 80; 5, 555-556).

AR CPM-in 28.4-cü maddəsinə əsasən, cinayət mühakimə icraatını həyata keçirərkən məhkəmələr aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

1) Cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək. Bu vəzifə, ilk baxışdan çəkişmə prinsipinin elementi kimi görünsə də, AR CPM-in 28-ci maddəsinin sistemində obyektiv həqiqətin müəyyən edilməsinin (cinayət mühakimə icraatının obyektivliyinin) təminatlarından biri kimi çıxış edir.

Həqiqətən də, hakimin tərəflər üçün zəruri şəraiti təmin etmək vəzifəsi çəkişmə prinsipindən irəli gələn əsas funksiyaların tərəflər və məhkəmə ara-

sında bölüşdürülməli olması haqqında konsepsiyanın tərkib hissəsidir. Təsadüfi deyildir ki, RF CPM-in 15-ci maddəsinin 3-cü hissəsi ilə tərəflər üçün öz prosessual hüquq və vəzifələrinin həyata keçirilməsi üçün zəruri şərait yaratmaq vəzifəsi məhz çəkişmə prinsipinin tərkib hissəsi kimi təsbit edilmişdir. Nəzəri mənbələrdə də bu mövqe müdafiə edilir (9, 63).

Lakin unutmaq lazım deyildir ki, cinayət prosesinin prinsipləri bir-biri ilə qarşılıqlı və orqanik əlaqəyə malikdirlər, onların birinin elementi digərinin təminat vasitəsi, eləcə də birinin müddəası digərinin də tərkib hissəsi kimi çıxış edə bilər. Çəkişmə və obyektiv həqiqətin müəyyən edilməsi – cinayət mühakimə icraatının obyektivliyi prinsipləri də bu qanunauyğunluqdan istisna deyildir. Milli hüquq ədəbiyyatında, haqlı olaraq, qeyd edildiyi kimi, çəkişmə prinsipinin mövcudluğu şəraitində tərəflərin bilavasitə azad diskussiya, mübahisə və polemika aparmaq imkanları real olur, müxtəlif fikir və rəylərin toqquşduğu şəraitdə obyektiv həqiqətin müəyyən edilməsi daha real ola bilər. Bu şərait idrakn maksimum dərəcədə faktlara əsasən həyata keçirilməsi üçün imkan yaradır (4, 16-17).

Göründüyü kimi, cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etməklə məhkəmə həm çəkişmə prinsipini, həm də cinayət prosesinin obyektivliyi prinsipini təmin etmiş olur. Milli hüquq ədəbiyyatında, həmçinin «cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi»nin də izahı verilmişdir. AR CPM-in kommentariyasının müəlliflərinin verdiyi izaha görə, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli tədqiqi dedikdə, cinayət işi və ya digər materiallar üzrə irəli sürülmüş bütün ehtimalların yoxlanılması və qiymətləndirilməsi, habelə, şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halların araşdırılması başa düşülməlidir. Cinayət təqibi ilə bağlı bütün halların tam tədqiq edilməsi dedikdə, sübutetmə predmetinə daxil olan bütün halların araşdırılması başa düşülməlidir. Cinayət işi (cinayət təqibi ilə bağlı digər materiallar) üzrə bütün halların obyektiv tədqiqi dedikdə isə, məhkəmənin, prokurorun, müstəntiqin və ya təhqiqatçının işin və ya digər materialın nəticələri ilə şəxsən maraqlı olmamaları və yalnız iş (digər materiallar) üzrə toplanmış sübutlara əsaslanaraq prosessual hərəkətləri həyata keçirmələri (qərarlar qəbul etmələri) başa düşülür (3, 84).

2) Şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq. Bu vəzifə cinayət mühakimə icraatının hərtərəfliliyini təmin etməklə həqiqətin müəyyən edilməsinə xidmət edir. Nəzəri mənbələrdə bəzən əməlin düzgün tövsif edilməsi cinayət prosesində həqiqət kateqoriyasının məzmununa aid edilir. Hüquq ədəbiyyatında qeyd edilir ki, tövsif araşdırma predmeti olan əməlin (hadisənin) hüquqi qiymətini əks etdirdiyi və cinayət prosesini həyata keçirən orqanların prosessual qərarlarında, o cümlədən, məhkəmənin yekun qərarlarında yer aldığı üçün onda (tövsifdə) səhvə yol vermək əmələ verilən qiymətdə səhvə yol verməyə bərabərdir. Bu sahədə araşdırma aparmış

müəlliflər belə bir sualla ifadə edilə biləcək mövqe nümayiş etdirirlər ki, əgər məhkəmə baş vermiş cinayəti öz adı ilə adlandırmazsa iş üzrə həqiqətin müəyyən edildiyindən necə danışmaq olar, axı həqiqətdə məhkəmənin qərarında göstərdiyi deyil, başqa cinayət baş vermişdir? Bu anlamda, əməlin düzgün tövsifi, doğrudan da, həqiqətdə baş vermiş hadisənin gerçək qiymətini (adını) əks etdirir (10, 203-204). Qeyd edilənlər əsasında belə nəticə çıxarmaq olar ki, məhkəmələr şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaqla əməlin hüquqi tövsifinin dəqiqlik dərəcəsini artırmış olur, bununla da, faktiki olaraq, iş üzrə həqiqətin dəqiq müəyyən edilməsi, daha doğrusu iş üzrə həqiqətə dəqiq hüquqi qiymət verilməsi üçün zəmin yaradır.

3) Şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud qismən təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxmaq. Bu vəzifə də əvvəlki vəzifə kimi cinayət mühakimə icraatının hərtərəfliliyini təmin etməklə həqiqətin müəyyən edilməsinə yönəlmişdir. Qanun ibtidai araşdırma orqanlarından nə qədər tələb etsə də, təcrübədə ibtidai araşdırma orqanları tərəfindən şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud qismən təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutlara qarşı «biganə» qalınacağı istisna edilə bilməz. Bu kimi halların mənfi nəticələrə səbəb olmasının qarşısını almaq üçün qanun cinayət təqibinə məruz qalan şəxslərə (şübhəli şəxsə, təqsirləndirilən şəxsə), eləcə də, onların qanuni mənafelərini təmsil edən subyektlərə (vəkil-müdafiəçi, qanuni nümayəndə) bu mənafelərin müdafiəsi, başqa sözlə, cinayət təqibinə məruz qalan şəxsin qanuni əsaslarla cinayət məsuliyyətindən azad edilməsinə, yaxud onun məsuliyyətinin yüngülləşdirilməsinə xidmət edə biləcək sübutların müəyyən edilməsinə və onların cinayət prosesini həyata keçirən orqanlara təqdim edilməsinə imkan verən hüquqlar verir. Bu hüquqların realizə mexanizmində təminat elementləri kimi qarşı tərəfin – cinayət prosesini həyata keçirən orqanın (nəzərdən keçirilən vəzifə kontekstində məhkəmənin) müvafiq reaksiya vermək vəzifəsinin nəzərdə tutulması olduqca önəmlidir. Odur ki, məhkəmələrin şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud qismən təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxmaq vəzifəsi adları sadalanan subyektlərin sübutetmədə iştirakına dair hüquqlarının təminat vasitəsi kimi çıxış etməklə, ibtidai araşdırma orqanı tərəfindən məhkəməyə göndərilmiş materiallarda diqqətə alınmamış, yaxud obyektiv səbəblərə görə nəzərə alınmamış (məsələn, ibtidai araşdırma zamanı bu və ya digər sübutun mövcud olmaması və s.) sübutların artıq məhkəmə icraatında iş üzrə sübutlar sisteminə əlavə edilməsini təmin edir, bununla da, işin hərtərəfli araşdırılması üçün zəmin yaradır.

4) Cinayət prosesi gedişində qanunun pozulması ilə əlaqədar verilən şikayətləri yoxlamaq. Məhkəmələrin bu vəzifəsi həm ümumiyyətlə baş vermiş qanun pozuntularına vaxtında və zəruri reaksiya verilməsini təmin etməklə cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipini təmin edir, həm də konkret olaraq ya cinayət mühakimə icraatının obyektivliyinə ya qərəzsizliyinə, yaxud da ədalətliliyinə xələl gətirə biləcək bu və ya digər pozuntuya reaksiya verilməsini təmin etməklə bilavasitə AR CPM-in 28-ci maddəsində nəzərdə tutulmuş prinsipin təminatı kimi çıxış edir.

5) Cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək. Bu vəzifə özündə cinayət mühakimə icraatında cinayət prosesinin iştirakçısı kimi çıxış etmək istəyən şəxslərin müvafiq müraciətlərinə (ərizə, vəsatət, şikayət və s.) vaxtında baxılması və bu müraciətə dair qanuni və əsaslı qərar qəbul edilməsi, o cümlədən, artıq cinayət prosesinin iştirakçısı statusuna malik olan şəxslərin məhkəmənin iclaslarında iştirak etmək hüququnun təmin edilməsinə dair vəzifələri birləşdirir.

Məhkəmələr cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnun təmin edilməsi üzrə vəzifəni təkcə məhkəmə icraatında deyil, məhkəməyədək icraatda da dayışırlar. Nəzərə almaq lazımdır ki, AR CPM-in 119-cu maddəsinin tələblərinə əsasən, qanunda nəzərdə tutulmuş kifayət qədər əsaslar olduqda hər bir şəxs özünün zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, mülki cavabdeh, onların və ya şahidin qanuni nümayəndəsi, yaxud nümayəndəsi qismində tanınması barədə ərizə ilə cinayət prosesini həyata keçirən orqana müraciət etməyə haqlıdır. Bu hüquqla əlaqədar olaraq ərizəçi cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarının surətini aldığı vaxtdan beş gün müddətində qəbul edilmiş qərardan məhkəməyə şikayət vermək, eləcə də, cinayət prosesinin iştirakçısı qismində tanınması üçün ərizə verildiyi gündən bir ay müddətində onun ərizəsi üzrə qərar çıxarılmadıqda, ərizəyə baxmalı olan cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən məhkəməyə şikayət vermək və ya məhkəmə vasitəsi ilə onun cinayət prosesinin iştirakçısı qismində tanınması üçün məhkəməyə ərizə vermək hüquqlarına da malikdir. Göründüyü kimi, nəzərdən keçirilən qayda daxilində məhkəmələr məhkəməyədək icraat zamanı da insanların cinayət mühakimə icraatında cinayət prosesinin iştirakçısı kimi iştirak etmək hüququnun təminat mexanizmində yer tuturlar.

AR CPM-in 28.5-ci maddəsinə əsasən, şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır. Milli hüquq ədəbiyyatında nəzər salınan maddənin şərh edilməsi zamanı qeyd edilir ki, şəxsin cinayət törətməsində təqsirli olması yalnız məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyən edilə bilər. Şəxsin təqsirli olması haqqında məhkəmənin gəldiyi nəticə məhkəmə baxışında tədqiq olunmuş, cinayət işi və ya digər materiallarla təsdiq edilmiş və məhkəmənin

qanunu və vicdanını rəhbər götürməklə öz daxili inamına görə qiymətləndirdiyi mötəbər sübutlara əsaslanmalıdır (3, 81).

Lakin biz belə hesab edirik ki, AR CPM-in 28.5-ci maddəsində şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarının əsaslanmalı olduğu sübutların cavab verməli olduğu meyarların müəyyən edilməsi üçün yalnız mənsubiyyət (işə aid olma) və mötəbərlik kriteriyasına istinad edilməsi nəzərdən keçirilən hüquq normasını bir qədər natamam saxlamışdır, yəni sübutların mümkünlüyü kimi digər əsas kriteriyası faktiki olaraq normadan kənarda qalır. Halbuki, mənsubiyyət və mötəbərlik hər bir sübutun cavab verməli olduğu əsas tələblərdən yalnız ikisidir, təkcə işə mənsub və mötəbər olması bu və ya digər əşyanın, sənədin, yaxud məlumatın sübut hesab edilməsi üçün kifayət deyildir.

Məlumdur ki, hər bir sübut mənsubiyyəti, mümkünlüyü və mötəbərliliyi üzrə qiymətləndirilməlidir. Sübutların mənsubiyyəti – onların sübutetmə predmetinə daxil olan hallara aid olması deməkdir. Sübutun mənsubiyyəti onun məzmunu üzrə qiymətləndirilə bilər. Sübut işin həlli üçün əhəmiyyətli ola biləcək hər hansı bir informasiya daşıyırsa, o, həmin işə aid olan sübut hesab edilir. Sübutların mümkünlüyü – məlumatların, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələrin olmaması deməkdir, başqa sözlə sübutların bu xassəsi sübutların yolverilən olması şərtərini müəyyən edir. Sübutların mötəbərliyi – onların həqiqiliyinə dair şübhələrin olmaması deməkdir. İttihamın sübut olunmasında yaranan şübhələri digər sübutlarla aradan qaldırmaq mümkün olmadıqda, onlar şübhəli və ya təqsirləndirilən şəxsin xeyrinə həll edilir (1, 312-315).

Hüquq ədəbiyyatında da məhkəmənin ittiham hökmünün (AR CPM-in 28.5-ci maddəsi təbirincə desək, şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarının) əsaslanmalı olduğu sübutların meyarları təhlil edilərkən onların mənsubiyyəti, yəni icraat predmeti olan işlə əlaqədar olması, bu işin sübut edilməli olan hallarına aidliyi və mötəbərliyi, yəni özündə həqiqi faktları əks etdirməsi kimi meyarlarla yanaşı, sübutların mümkünlük şərtləri də, yəni sübutların qanunla yol verilən prosessual qaydalarla və buna səlahiyyətli subyektlər tərəfindən əldə edilməli olması tələbi, demək olar ki, bu məsələyə münasibət bildirmiş bütün müəlliflər tərəfindən qeyd edilir. Hökmdə sübut kimi yolverilməz materiallara istinad edilməsi, hökmün qanuniliyi tələbini avtomatik olaraq pozmuş olur, bundan başqa, sübutların mümkünlük şərtlərinin pozulması ilə əldə edilməsi onların mötəbərliyini də şübhə altına sala bilər, çünki sübutların mükünlük şərtləri paralel olaraq prosessual təminat vasitələri kimi də çıxış edir və bu təminatlardan kənarda əldə edilmiş materialların həqiqilik dərəcəsinin təhrif edilməsi üçün şərait yaranmış olur. Sübutların mümkünlüyünün qiymətləndirilməsi hökmlərin çıxarılması zamanı həyata keçirilən sübut qiymətləndirmə prosesinin mütləq tərkib hissəsi kimi çıxış etməlidir (12, 175-177).

Edilmiş istinadlardan göründüyü kimi, istənilən sübutun prosessual qərarın, xüsusilə də, şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarının əsasına qoyula bilməsi üçün onun işə mənsub və mötəbər olması ilə yanaşı, işdə qanunla yolverilən (mümkün) sübut olması da vacibdir.

AR CPM-in 28.6-cı maddəsinə əsasən, ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının ayrı-ayrı işlər və şəxslər üçün, habelə müəyyən şəraitə görə, yaxud hər hansı bir zaman dövründə özbaşınalıqla dəyişdirilməsinə yol verilmir. Göründüyü kimi, nəzərdən keçirilən maddə cinayət mühakimə icraatının differensiasiyası məsələsinə aiddir. Nəzərə almaq lazımdır ki, AR CPM-in 28.6-cı maddəsi cinayət prosesində ümumilikdə differensiasiyanı istisna etmir, yalnız cinayət prosessual formanın özbaşınalıqla dəyişdirilməsini qadağan edir. Bu anlamda, cinayət mühakimə icraatının şəxslərə (məsələn, yetkinlik yaşına çatmayanların işləri üzrə icraatın, anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barədə icraatın və s.), cinayətlərin ağırlıq dərəcəsinə (məsələn, böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək icraatın sadələşdirilməsi) və s. qanuni əsaslara görə differensiasiya edilməsi cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipini pozmur.

Bütün göstrilənlərlə yanaşı, qeyd edilməlidir ki, AR CPM-in 28-ci maddəsində təsbit edilmiş cinayət mühakimə icraatının obyektivliyi tələbi cinayət prosesində həqiqətin müəyyən edilməli olması haqqında tələb kimi başa düşülməlidir.

Həqiqətin müəyyən edilməsi cinayət prosesi üçün olduqca vacibdir. Həqiqətin aşkara çıxmadığı bir prosesi heç bir vəchlə ədalət mühakiməsi adlandırmaq mümkün deyildir. Bununla belə, həqiqətin müəyyən edilməsi cinayət prosesinin yekun məqsədi kimi də nəzərdən keçirilə bilməz. Əks təqdirdə, belə çıxır ki, cinayət prosesi həqiqətin müəyyən edilməsi anında başa çatmalıdır, çünki həqiqətin müəyyən edilməsi ilə cinayət prosesinin yekun məqsədinə nail olunmuşdur. Göründüyü kimi, belə yanaşma həm sübutetmənin, həm də bütünlüklə cinayət prosesinin öz mahiyyətinə uyğun gəlmir. Çünki həm sübutetmə, həm də bütün cinayət prosesi yekun qərarın qəbul edilməsi ilə başa çatmalıdır. Həqiqət isə, məhz belə bir qərarın qəbul edilməsinə imkan verən zəmindir. Belə demək olarsa, həqiqətin müəyyən edilməsi özü-özlüyündə cinayət prosesinin son məqsədi deyildir, o, cinayət mühakimə icraatının digər yekun məqsədlərinə nail olmanın vasitəsidir.

Bununla belə, obyektiv həqiqətin müəyyən edilməsi tələbi AR CPM-in 28-ci maddəsindən irəli gəlsə də, bu tələb heç də prosesin bütün iştirakçılarına yönəlmir. Çəkişmə prosesinin mahiyyətinə görə, hər bir tərəf məhkəmədə təmsil olunmaqla və öz fikrini bildirmək hüququna malik olmaqla, açıq və aşkar məhkəmə baxışı gedişində öz mövqeyini təsdiq edən sübutlar təqdim edir, öz mövqeyini bütün qanuni üsullarla əsaslandırmağa, əks tərəfin mövqeyinə nisbətən daha əsaslı olduğunu sübut etməyə çalışır. Məhkəmə isə proses iştirakçıları tərəfindən bu qaydada aparılan mübahisənin reqlamentə uyğunluğunu təmin edir, işin bütün hallarının tam, hərtərəfli və obyektiv

araşdırılması üçün tərəflərə lazımi şərait yaradır. Bununla belə, hazırda Azərbaycanın məhkəmə təcrübəsində müdafiə tərəfi iş üzrə sübutlar toplamaq üçün heç də lazımi imkanlara malik olmadığından, bu halda sübutedici bazanın ittiham tərəfinin xeyrinə olması və bu səbəbdən də çəkişmənin formal xarakterli olması labüddür (2, 78-79).

AR CPM-in 28-ci maddəsində təsbit edilmiş daha bir hüquqi ideya cinayət mühakimə icraatının qərəzsiz olması haqqında ideyadır. Azərbaycan Respublikasının cinayət mühakimə icraatında qərəzsizlik özünün hər iki təzahür formasında – cinayət prosesinin gedişinə və nəticəsinə təsir göstərə biləcək şəxslərin a) önyarğılı olmasının və b) işin nəticəsində şəxsən maraqlı olmasının (şəxsi-qərəzin) istisna edilməsi yolu ilə təmin edilir. Cinayət prosesini həyata keçirən subyektlərin (təhqiqatçı, müstəntiq, prokuror, hakim), eləcə də, cinayət prosesində iştirak edən digər şəxslərin (tərcüməçi, mütəxəssis, ekspert və s.) önyarğılı olması, işin nəticəsində şəxsən maraqlı olmasalar da, onların təqib olunan şəxsə, zərər çəkmiş şəxsə, yaxud mühakimə icraatının predmeti olan hadisəyə işin hallarının mahiyyətinə varmadan əvvəlcədən münasibət formalaşdırmış olmalarında ifadə olunur. Cinayət prosesini həyata keçirən orqanların önyarğılı olması, bir qayda olaraq, ittiham meyllilik və peşəkar fəaliyətlə əlaqədar olaraq şəxsiyyət deformasiyası problemi ilə əlaqələndirilir. Hüquq ədəbiyatında, haqlı olaraq, qeyd edilir ki, önyarğılılıq, xüsusilə də hakimlərin önyarğılı olması cinayət prosesində taleyüklü qərarların qəbul edilməsi üçün daxili inamın formalaşdırılmalı olması və məhz daxili inam əsasında qərar qəbul edilməli olması haqqında qaydanın bütün əhəmiyyətini azaldır, onu deklarativ bir müddəaya çevrir. Önyarğılılığın bəraətə meylliliyə səbəb olması istisna edilməsə də, hüquq ədəbiyyatında daha çox ittihama meylliliyin əsas səbəblərindən biri kimi nəzərdən keçirilir. İttihama meyllilik isə, öz növbəsində, daha yüngül cəzanın tətbiq edilməsi ilə cəzanın məqsədlərinə nail olmanın mümkün olduğu hallarda daha ağır cəzaların verilməsindən başlayaraq, təqsirsiz şəxslərin məhkum edilməsinə qədər ağır nəticələrə səbəb ola biləcək neqativ bir haldır (7, 52; 8, 69; 13, 39).

Cinayət mühakimə icraatında şəxsi-qərəz isə cinayət prosesinin gedişatına və ya nəticələrinə təsir etmək imkanları olan şəxslərin işin nəticələrində şəxsən maraqlı olmasında ifadə olunur. «*Nemo debet esse judex in propira causa*», yəni «Heç kəs öz işində hakim ola bilməz» prinsipinin pozulmasına səbəb ola biləcək şəxsi-qərəzin özü də işin nəticələrində birbaşa, yaxud dolayı marağın mövcudluğunda ifadə oluna bilər. Eyni zamanda, şəxsi-qərəz də, önyarğılılıq kimi həm ittihama, həm də bəraətə meylliliyə səbəb ola bilər. Şəxsi-qərəz şəxsi maraq kateqoriyası ilə sıx bağlı olduğu üçün o, işin gedişatında da yaranmış ola bilər. Belə ki, işi icraatına qəbul etmiş vəzifəli şəxs həmin anda işin nəticələrində heç bir şəxsi marağa malik olmasa da, işin sonrakı gedişatında pulla ələ alma, rüşvət vəd etmə və s. qanunsuz təsir vasitələri ilə həmin vəzifəli şəxsdə işin konkret nətiəcələrinə dair şəxsi maraq yarana bilər. Cinayət prosesini həyata keçirən vəzifəli şəxsin – hüquq tətbiq

edicisinin şəxsi maraqları naminə hərəkət etməsi həm iş üzrə müxtəlif prosessual statusda çıxış edən ayrı-ayrı şəxslərin, həm də, ümumiyyətlə, ədalət mühakiməsinin maraqlarına ciddi xələl yetirir, cinayət mühakimə icraatının ictimai xarakterini və onun ictimai maraqların müdafiə vasitəsi kimi imkanlarını heçə endirir. Cinayət mühakimə icraatında şəxsi maraqları onların prosessual statusunun yolverilən tərkib hissəsi kimi çıxış edə biləcək prosessual subyektlərin dairəsi məhduddur, onlar ya cinayətdən zərər görmüş şəxslər (zərər çəkmiş şəxs və mülki iddiaçı), yaxud da cinayət və ya mülki məsuliyyətə cəlb edilən şəxslər (şübhəli şəxs, təqsirləndirilən şəxs, mülki cavabdeh) ola bilərlər. Cinayət mühakimə icraatının konkret nəticələrində (yəni konkret şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, yaxud onun cinayət məsuliyyətindən yaxa qurtarması nəzərdə tutulur) şəxsən maraqlı olma cinayət prosesinin digər subyektləri, xüsusilə də, hüquq tətbiq edicilər üçün nəinki prosessual statusun tərkib hissəsi kimi çıxış edə bilməz, əslində bu element konkret şəxsin müvafiq iş üzrə hüquq tətbiqedici statuslu subyekt kimi iştirakını istisna edir. Belə şəxslər ya özünə etiraz etməli, ya da cinayət prosesindən kənarlaşdırılmalıdırlar.

Cinayət mühakimə icraatının qərəzsizliyinin təmin edilməsi üçün qərəzliliyin hər iki təzahür formasının müşahidə edildiyi hallarda qərəzli subyektlərin cinayət işi üzrə icraatda iştirakını istisna edən mexanizmlər nəzərdə tutulmalıdır. Azərbaycan Respublikasının cinayət prosesində bu mexanizm öz realizəsini «etirazlar» institutu vasitəsilə tapır. AR CPM-in XII Fəsli (107-118-ci maddələr) bütövlükdə etirazlar institutuna həsr edilmişdir.

Nəhayət, AR CPM-in 28-ci maddəsi cinayət mühakimə icraatının ədalətliliyi ideyasını normativ qaydada təsbit edən maddə kimi çıxış edir. Hüquq fəlsəfəsində ədalətə, hər şeydən öncə, cəmiyyətdə mövcud olan sosial xarakterli ölçü vahidi kimi baxılır. Bir ölçü vahidi kimi nəzərdən keçirildikdə ədalət həm kəmiyyət, həm də keyfiyyət müəyyən edən kateqoriya kimi çıxış edə bilər. Bu, onunla əlaqədardır ki, ictimai münasibətlərdən ədalətlilik gözləntisi, həm bu münasibətlərin tərəflərinin bərabərliyi kimi (burada ədalət kəmiyyət xassəsi müəyyən edir), həm də, əksinə, bir tərəfin digəri üzərində qeyri-bərabərliyi, üstünlüyü kimi (burada ədalət keyfiyyət xassəsi müəyyən edir) başa düşülə bilər. Ədalətin kəmiyyət xassəsi müəyyən edən kateqoriya kimi izahı daha qədimdir. Hələ Aristotelin təlimlərində ədalətin məhz bərabərləşdirici xüsusiyyəti xüsusi vurğulanırdı. Bu yanaşmada ədalət ictimai münasibətlərin tərəflərinin bir-biri ilə tam bərabər olmasında ifadə olunurdu. Hüquqa münasibətdə ədalətin bu cür anlaşılması nəticəsində talion prinsipi (vurulan zərərə bərabər ziyanın vurulması ədalətlidir – «Gözə göz, dişə diş» prinsipi) uzun zaman əsas ədalət göstəricisi hesab edilmişdir. Ədalətin keyfiyyət xassəsi müəyyən edən kateqoriya kimi izahı isə cəmiyyətin sonrakı inkişaf mərhələlərində formalaşmışdır. Bu yanaşmada ictimai münasibətlərin ədalətli olması üçün onun iştirakçılarının (məsələn, dövlətin hakimi və onun rəiyyəti, cinayət törətmiş şəxs və məhkəmə və s.) tam bərabər olması vacib hesab edilmirdi. Ədalətin keyfiyyət xassəsi kimi başa düşülməsi bu və ya digər

münasibətin, hadisəinin, halın ədalətli və ya ədalətsiz hesab edilməsi üçün «ədalət meyarlarına» müraciət etməni zəruri edirdi (16, 9-10; 14, 130).

Ədalət kateqoriyasının birinci izahından fərqli olaraq, ikinci izahında ictimai münasibətlər «bərabərlik» meyarları əsasında deyil, «ekvivalentlik» meyarları əsasında qiymətləndirildikdən sonra ədalətli, yaxud ədalətsiz hesab edilə bilərdi. «Eyni qiymətdə, eyni qüvvədə, eyni dəyərdə olma» meyarları kimi çıxış edən ekvivalentlik meyarlarının tətbiqi ictimai münasibətlərin ədalətli olması üçün onun iştirakçılarının bərabər olması zərurətini aradan qaldıra bilir, bunun əvəzinə, ictimai münasibətlərin bir tərəfinin malik olduğu hüquqlar müqabilində qarşı tərəfə eyni dərəcədə əhəmiyyətli vəzifələr, eləcə də, bir tərəfinin daşıdığı vəzifələr müqabilində qarşı tərəfə eyni dərəcədə əhəmiyyətli hüquqlar verilməsini nəzərdə tutmaqla sadə riyazi bərabərlik vasitəsilə deyil, dəqiq quruluş tənasüb (mütənasiblik meyarı) əsasında ədaləti təmin etməyə imkan verir. Ədalətin ikinci izahı belə bir tezis formulə etməyə imkan verir ki, iştirakçıları tam bərabər olmayan ictimai münasibətlər də ədalətli ola bilər, bunun üçün həmin münasibətlərin ədalət meyarlarına cavab verməsi kifayətdir (11, 209-30).

Beləliklə, tərəfimizdən aparılmış təhlillər göstərdi ki, AR CPM-in 28.2-ci maddəsində istifadə edilmiş «qanunun mənafeyi» ifadəsi konkret hüquqi məzmuna malik olmadığı üçün qeyd edilən normanın hüquqi qayda və hüquqi ideya təsbit etmə qabiliyyətini azaldır. Bu səbəbdən, hesab edirik ki, nəzərdən keçirilən maddənin mətninə «qanunun mənafeyi» ifadəsi əvəzinə konkret hüquqi məna kəsb edən «qanuni mənafe» ifadəsindən istifadə edilməsi daha məqsədəuyğundur. Fikrimizcə, belə olan təqdirdə, AR CPM-in 28.2-ci maddəsi kifayət qədər ağlabatan və hüquqi əhəmiyyət kəsb edən ideya əks etdirəcəkdir. Bundan başqa, müəyyən etdik ki, istənilən bir sübutun prosessual qərarın, xüsusilə də, şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarının əsasına qoyula bilməsi üçün onun işə mənsub və mötəbər olması ilə yanaşı, qanunla yolverilən (mümkün) sübut olması da vacibdir. Odur ki, AR CPM-in 28.5-ci maddəsinin təkmilləşdirilməsi qaydasında həmin maddədə «mötəbər» sözündən sonra «və qanunla yol verilən» sözlərinin əlavə edilməli olmasını zəruri hesab edirik: «Şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər və qanunla yol verilən sübutların məcmusu ilə təsdiq olunmalıdır».

**ƏDƏBİYYAT**

1. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə.Yenidən işlənmiş ikinci nəşr. Bakı: Zərdabi LTD MMC, 2015, 412 s.
2. Abbasova F.M. Çəkişmə prinsipi: inkişaf tarixi, müasir problemləri və onların həlli yolları. Bakı: Qanun, 2008, 248 s.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümov , B.C. Kərimov və Ə.H. Hüseynovun redaktəsi ilə. Bakı: Digesta, 2013, 1363 s.

4. Əzimov Z.N. Cinayət mühakimə icraatında obyektiv həqiqətin müəyyən edilməsinin prosessual problemləri. Hüquq elmləri üzrə fəlsəfə dok. dis. avtoref. Bakı, 2009, 22 s.
5. İbayev V.Ə. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Maddələr 8-36. Bakı: Qanun, 2004, 769 s.
6. Баранов В.М., Першин М.В., Першина И.В. Законный интерес: опыт построения теории // Философия права, 2005, № 4, с. 74-80.
7. Васильев Л., Филиппов М. О предвзятости и деформации в деятельности следователей и прокуроров // Социалистическая законность, 1989, № 7, с. 52-53.
8. Власова Н.А. Внутреннее убеждение или предубеждение? // Юридический аналитический журнал, 2004, № 2-3, с. 66-77.
9. Ермаков С.В. Роль суда в связи с изменением содержания принципа состязательности в уголовном процессе России / Правовые и организационные вопросы функционирования уголовно-исполнительной системы Минюста России. Материалы межвузовской научно-практической конференции, посвященной 125-летию уголовно-исполнительной системы Минюста России. Владимир, 30 марта 2004 г., с. 63-67.
10. Кругликов Л.Л. О приложимости категории истины к квалификации преступлений // Юридические записки Ярославского государственного университета П.Г. Демидова, 2010, № 14, с. 200-209.
11. Малахов В.П. Концепция философии права. М.: Юнити-Дана, 2007, 751 с.
12. Миронов В.Ю. Достоверность доказательств и их значение при постановлении приговора. Дисс. … к.ю.н., Оренбург, 2005, 222 с.
13. Попова Я.И. Проявление обвинительного уклона в уголовном процессе // Адвокатская практика, 2001, № 4, с. 37-48.
14. Слинько А.А., Сорокина Ю.В., Ячевский В.В. Философия права. Социология права. Учебно-методическое пособие Воронеж: Воронеж. ун-т, 2003, 304 с.
15. Сенников И.Е. Законный интерес как форма выражения правовых возможностей (дозволений) и объект судебно-правовой защиты // Право: теория и практика, 2003, № 14, с. 68-74.
16. Стрелецкий Я.И. Философия права. Учебное пособие. Краснодар: Краснодар. юрид. ин-т МВД России, 2001, 58 с.

## НЕКОТОРЫЕ СУЖДЕНИЯ О ПРИНЦИПЕ ОБЪЕКТИВНОСТИ, БЕСПРИСТРАСТНОСТИ И СПРАВЕДЛИВОСТИ УГОЛОВНОГО СУДОПРОИЗВОДСТВА

**Ф.М.АББАСОВА, Дж.Г.ГАМИДОВ**

### РЕЗЮМЕ

Система принципов имеет значение правового основания процессуальной деятельности. Она определяет структуру процесса, механизм процессуальной деятельности, ее содержание, процессуальную форму следственных действий, гарантии законности и справедливости процессуальных решений и т.д. Принципы не просто суммированы в систему, они образуют ее как некое целое. Только система принципов может гарантировать достижение целей уголовного процесса. В этом заключается ее новое качество, которым не обладает ни один из принципов в отдельности. Система принципов в силу своей полноты и различного содержания составляющих ее принципов имеет способность к сохранению своей целостности, самовосстановлению. Поэтому нарушение какого-либо принципа не обязательно парализует всю систему, не исключает возможность решения

задач процесса. Учитывая это, в статье детально анализируется принцип объективности, беспристрастности и справедливости уголовного судопроизводства на основании доктринального толкования ст. 28 УПК Азербайджанской Республики.

**Ключевые слова:** уголовный процесс, принцип, объективность, истина, беспристрастность, отводы, справедливость, анализ, предложения.

## SOME JUDGMENTS ABOUT THE PRINCIPLE OF OBJECTIVITY, IMPARTIALITY AND JUSTICE OF CRIMINAL LEGAL PROCEEDINGS

**F.M.ABBASOVA, J.H.HAMIDOV**

### SUMMARY

The system of the principles matters a legal ground of procedural activity. It defines structure of a process, the mechanism of a procedural activity, its contents, the procedural form of the investigative actions, guarantees of legality and justice of proceeding decisions, etc. The principles aren't simply summarized in the system, they form it as a certain whole. Only the system of the principles can guarantee achievement of the objectives of a criminal trial. Its new quality which isn't possessed by any of the principles separately consists in it. The system of the principles, owing to the completeness and various content of the principles making it, has the ability of preservation of integrity, self-restoration. Therefore, violation of any principle won't surely paralyze all the system, and doesn't exclude the possibility of the solution of the problems of a process. Considering it, the article studies the principle of objectivity, impartiality and justice of criminal legal proceedings on the basis of doctrinal interpretation of Article 28 of the Criminal Procedural Code of the Azerbaijan Republic in details.

**Key words:** criminal trial, principle, objectivity, truth, impartiality, branches, justice, analysis, offers.